**Müqəddəs Fəxri oğlu ƏZİZZADƏ**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı

# AZƏRBAYCANDA KİMYA VƏ NEFTKİMYA SƏNAYESİNDƏ İSTEHSAL-İXRAC POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

*Tədqiqatın məqsədi* Azərbaycanda kimya və neftkimya sənayesində istehsal-ixrac potensialının qiymətləndirilməsindən ibarətdir. Kimya və neftkimya sənayesinin inkişaf problemləri araşdırılmış və açıqlanmışdır. Kimya və neftkimya kompleksinin ixrac potensialının yüksək olması qeyd edilmişdir. Azərbaycanda qeyri-neftqaz sektoru sahələri arasında kimya və neftkimya kompleksinin ixrac potensialı xüsusilə fərqləndirilmişdir. Yeni çağırışlar nəzərə alınmaqla, Azərbaycanda kimya və neftkimya sənayesinin istehsal-ixrac potensialının qiymətləndirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* kimi analiz, sintez, statistik təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamanda kimya və neft-kimya sahəsinin istehsal-ixrac potensialının artırılması istiqamətlərində aparılmış tədqiqatlara istinad olunmuşdur.

*Tədqiqatın nəticələri* baxımından qeyd etmək mümkündür ki, məqalədə alınmış elmi nəticələrdən kimya və neft-kimya sahəsinin istehsal – ixrac potensialının artırılması tədbirlərinin və mexanizmlərin hazırlanmasında istifadə edilməsi imkanları genişdir.

***Açar sözlər**: Azərbaycan, kimya və neftkimya sənayesi, istehsal-ixrac potensialı, qiymətləndirmə, istehsal-ixrac imkanlarının artırılması prioritetləri, kimya və neftkimya sənayesinin inkişaf istiqamətləri.*

**UOT:** 338.36:338.33
**JEL:** L26; L52; L60
**DOI:** https://doi.org/ 1054414/ NQBD8643

## Giriş

Bu gün dünyada iqtisadi inkişaf səviyyəsi qloballaşma və inteqrasiya prosesləri ilə yanaşı, təkcə ölkələr arasında deyil, habelə sənaye sahələri arasında rəqabətin artması prosesi ilə xarakterizə olunur. Sənaye sahələrinin rəqabətqabiliyyətlilik səviyyəsinə təsir edən meyarlardan biri onların inkişaf səviyyəsidir. Sənaye sahələrinin inkişaf səviyyəsi isə onların istehsal-ixrac potensialından necə istifadə etməsindən asılıdır. İstehsal-ixrac potensialı müəyyən bir müəssisənin, regionun və ölkənin məhsul istehsal edib, onu yaxın və uzaq ölkələrə ixrac etmək potensial imkanlarıdır. Beləliklə, müəssisələr xarici bazar üçün lazım olan rəqabətqabiliyyətli məhsullar istehsal edirlər. İstehsal-ixrac potensialı sənayenin, bütövlükdə ölkənin ümumi istehsalının mühüm sayda rəqabətqabiliyyətli mallar istehsal etmək qabiliyyəti kimi başa düşülür. İstehsal-ixrac potensialı aşağıdakılardan asılıdır: 1. İqtisadiyyatın ümumi vəziyyətindən. 2. Təbii resurs potensialından. 3. Əmək potensialından. 4. Ölkənin əlverişli coğrafi mövqeyindən [1, s.31].

Azərbaycanda hər bir iri sənaye sahəsinin də özünəməxsus istehsal-ixrac potensialı vardır ki, belə sahələrdən biri kimya və neft-kimya sahəsidir. Hazırda Azərbaycan qlobal təsirlər kontekstində ölkənin iqtisadi inkişaf modelini təkmilləşdirir. Azərbaycan iqtisadiyyatı da qlobal təhlükələrə və müasir çağırışların tələblərinə qarşı dayanıqlılıq nümayiş etdirir. Bundan əlavə, pandemiyadan sonrakı dövrdə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun, o cümlədən kimya və neft-kimya sahəsinin şaxələndirilməsinin genişləndirilməsi, habelə həmin sahənin rəqabət qabiliyyətinin artırılması ilə bağlı qarşıda duran vəzifələrin reallaşdırılması və problemlərin həlli zəruridir [2, s. 68].

## Kimya və neftkimya sənayesində istehsal-ixrac potensialının tədqiqi

Azərbaycanda kimya və neft-kimya sənayesinin inkişafı üçün bütün əsaslar var, çünki həmin sənaye neft, təbii qaz xammalı kimi spesifik ehtiyatlara malikdir. Bütün bunlar iri istehsalat müəssisələrinin fəaliyyət göstərməsinə və yüksək texnologiyaların tətbiqinə, xarici investisiyaların

cəlb edilməsinə, birgə müəssisələrin yaradılmasına və s. imkan verir. Azərbaycanda kimya və neft-kimya sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən yüksək keyfiyyətli və geniş çeşidli ixracyönümlü məhsullar istehsal edilir. Belə məhsullara propilen, yüksək sıxlıqlı polietilen, polietilen, etilen, texniki və mütləq izopropil spirti, müxtəlif fraksiyaları, piroliz qatranları və s. göstərmək olar. İstehsalın artımını və dayanıqlığını təmin etmək məqsədi ilə reallaşdırılan özünü-inkişaf mənbələri və imkanlarının məcmusu istehsal potensialı adlanır. İstehsal potensialı müəssisənin mövcud ehtiyatlardan və istehsal imkanlarından istifadə etməklə rəqabətqabiliyyətli məhsul istehsal etmək qabiliyyətidir. İstehsal potensialının əsas vəzifəsi məhsul istehsalıdır. İstehsal potensialı müəssisənin imkanlarının bazarda istifadəsinin səmərəliliyinə təsir edən resurslar məcmusunun köməyi ilə reallaşdırıldığı sistem kimi qəbul edilə bilər.

İstehsal potensialı istənilən istehsal müəssisəsinin resurslarının məcmusudur, habelə həmin resursların istehsal prosesi zamanı müəyyən nəticələrə çevrilmə qabiliyyətidir ki, bu da qarşıya qoyulmuş iqtisadi məqsədlərə nail olmağa yönəldilməlidir. Müəssisənin istehsal potensialına, bir qayda olaraq, iki tərəfdən baxılır: bir tərəfdən, mövcud ehtiyatların köməyi ilə istehsal oluna bilən məhsulun maksimum həcmini əldə etmək imkanı kimi, digər tərəfdən istehsal potensialı müəssisənin onu resurslarla təmin edən bütün mümkün amilləridir [3, s.183]. Kimya və neft-kimya sahəsinin əsas fondları onların tərkib hissəsi, əsas gəlir və mənfəət mənbəyidir. Həmin sahənin rəqabət qabiliyyəti əsas fondların yaxşı və keyfiyyətli vəziyyətindən asılıdır. Bu fondlar düzgün saxlandıqda və lazımi komponentlər vaxtında yeniləndikdə çoxlu sayda istehsal dövrlərində iştirak etmək qabiliyyətinə malikdir. Bu halda sahənin əsas fondları uzun müddət xidmət göstərəcək və öz təbii formasını saxlayacaqdır. Əsas fondların vəziyyəti və səmərəli istifadəsi fəal kimya və neft-kimya sahəsinin son maliyyə-təsərrüfat nəticəsinə birbaşa təsir göstərir [4, s.21]. Kimya və neft-kimya sahəsinin istehsal potensialından səmərəli istifadə olunarsa, bu, həmin sahənin ixrac potensialının artım həcmində özünü büruzə verər.

Ölkənin və onun sənaye müəssisələrinin istehsal, infrastruktur, təbii, elmi-texniki və digər müqayisəli üstünlüklərdən istifadə edərək, rəqabətqabiliyyətli mal və xidmətlər istehsal edib dünya bazarına çıxarmaq qabiliyyəti ixrac potensialı adlanır [5, s.157]. İxrac potensialı mal və xidmətlərin xarici bazarlarda satış həcmlərində ifadə olunan əsas komponentlərdən biri hesab olunur. Bu potensial müəssisənin istehsal, bazar, maliyyə, kadr və digər potensialının vəhdəti hesabına rəqabətqabiliyyətli məhsul istehsal etmək və onları xarici bazarlarda satmaq qabiliyyəti kimi müəyyənləşdirilir. İxrac potensialı məhsul və coğrafi istiqamətlərdə inkişaf edə bilər [6, s. 69]. Birinci halda söhbət istehsalda mövcud olan malların rəqabət qabiliyyətinin artırılmasından və yenilərinin yaradılmasından və ixracın çeşidinin genişləndirilməsindən gedirsə, ikinci halda isə, yeni bazarlara çıxmaq və ya artıq inkişaf etmiş bazarlarda məhsulların satışını artırmaqla ixrac potensialının artırılmasını nəzərdə tutur [7, s.386].

Kimya və neft-kimya sahəsinin ixrac potensialının artırılması üçün ilk öncə, həmin potensialın reallaşdırılması mərhələlərini tədqiq etmək lazımdır ki, həmin mərhələlər də aşağıdakı tədbirlərdən ibarətdir.

1. Ətraf mühit amillərin müəyyənləşdirilməsi və onların müəssisənin ixrac potensialına təsirinin qiymətləndirilməsi. Bu mərhələ kimya və neft-kimya sahəsinin ixrac fəaliyyəti ilə ətraf mühit amilləri arasında əlaqəni müəyyənləşdirməyi nəzərdə tutur. Burada xarici mühitin əsas amillərini nəzərdən keçirməklə yanaşı, onların həmin sahənin ixrac potensialına təsir dərəcəsini müəyyənləşdirmək lazımdır. Bu baxımdan amil korrelyasiya təhlilinin aparılması məqsədəuyğundur ki, bu da istehsal həcmini, qiymətləri və malların təşviqi xərclərini təyin edərkən nəzərə alınmalı olan əsas təsir amillərinin kəmiyyətini müəyyənləşdirməyə imkan verəcəkdir. Korrelyasiya-reqressiya təhlili geniş yayılmışdır və səbəbli təsirlərin intensivliyini təyin etmək üçün istifadə olunur. Bu kimi amilli təhlil üsulları geniş yayılmışdır və ümumilikdə proqnozlaşdırma, planlaşdırma, təhlil və qiymətləndirmədə və müəssisənin maliyyə vəziyyətinin diaqnostikasında istifadə olunur. Bu üsul həm də kimya və neft-kimya sahəsinin ixracının diaqnostikası və ətraf mühit amillərinin təsirinin intensivliyini müəyyənləşdirmək üçün uyğundur. Korrelyasiya funksiyasının dəyəri yüksək olduqca tədqiq olunan amilin ixrac potensialına təsiri də yüksələr. Ətraf mühit

amilləri və yerli ixrac potensialının korrelyasiya təhlilinin nəticələrinin ümumiləşdirilməsi kimya və neft-kimya sahəsinin ümumi ixrac potensialının idarə edilməsində əsas amilləri müəyyənləşdirməyə imkan verir.

2. İxrac göstəricilərinin müəyyənləşdirilməsi. Bu məqsədlə tədqiq etdiyimiz sahənin ixracının strukturu və dinamikası təhlil edilir. Dinamikanı qiymətləndirmək məqsədilə üfüqi təhlil metodundan istifadə olunur. O, qazancları və artım templərini müəyyənləşdirməkdən ibarətdir. Hesablama bütövlükdə ixrac və onun müxtəlif komponentləri üzrə aparılır. İxrac strukturunun təhlili şaquli təhlil metodundan istifadə etməklə də aparılır ki, bu da onun paylama strukturunu qiymətləndirməyə imkan verir. Həmçinin, ixrac fəaliyyətinin kimya və neft-kimya sahəsinin ümumi strukturunda yerini müəyyənləşdirmək məqsədilə koordinasiya və paylanma əmsallarının hesablanması məqsədəuyğun görünür və bu əmsallar həmin sahənin fəaliyyətinin ümumi strukturunda ixracın yerini müəyyənləşdirir.

3. Kimya və neft-kimya sahəsinin marketinq fəaliyyətinin tədqiqinin aparılması və xarici bazarlara satışların nəzərdən keçirilməsi.

İxrac fəaliyyətinin marketinq seqmentində qarşıya yeni və prioritet vəzifələr qoyulur, sahə məhsullarının inkişafı məqsədilə strateji marketinq planları hazırlanır, öz məhsulu ilə daxil olmağa səy göstərmək istədiyi məqsədli bazarlar seçilir və təhlil edilir. Satış xərclərinin rentabelliyi, sahə məhsullarına olan tələbatın həcmini, reklam xərclərini əks etdirən göstəriciləri də hesablamaq lazımdır. Sahə məhsullarının xüsusiyyətləri əsas götürülməklə, onun ixrac potensialının tərkib hissəsi kimi innovasiya potensialını da qiymətləndirmək olar. İnnovativ potensialı təhlil etmək məqsədilə elmi-tədqiqatlara çəkilən xərclərin səviyyəsini hesablamaq, habelə, yeni texnologiyaların istehsalata tətbiqi imkanlarını araşdırmaq lazımdır.

4. Dördüncü mərhələ strateji planın tərtib edilməsidir ki, bu plan məhsul və coğrafi istiqamətdə inkişaf edə bilər.

Müəssisə qarşısına qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq öz istiqamətini seçir və strategiyasını formalaşdırır ki, bu da ixrac potensialının artmasına töhfə verə bilər.

Azərbaycanda son illər rəqabətqabiliyyətli və ixracyönümlü istehsalın təşkili, ixrac strukturunun genişləndirilməsi istiqamətində ardıcıl tədbirlərin reallaşdırılması prosesləri intensivləşdirilib. Ölkəmizin ənənəvi sahələrindən olan kimya və neft-kiymya sahələrinin ixrac potensialını önəmli dərəcədə gücləndirəcək iri proqramlar və layihələr icra edilir.

## Azərbaycanda kimya və neftkimya sənayesinin istehsal-ixrac potensialının artırılması yolları

Azərbaycanda kimya və neft-kimya sənayesinin inkişafı ilə bağlı məsələlər "Azərbaycan Respublikasının neft-qaz sənayesinin (o cümlədən kimya məhsullarının) inkişafına dair Strateji Yol Xəritəsi"ndə daha geniş şəkildə öz əksini tapmışdır və həmin strategiya reallaşdırılır. Əsas diqqət müasir texnologiyalarla təchiz edilmiş ixracyönümlü kimya və neft-kimya müəssisələrinin genişləndirilməsinə yönəlib. Strateji yol xəritəsi çərçivəsində yüksək texnologiyaların ölkəmizin həmin sahəsinə transferi baxımından daha əlverişli şərait yaradılır [8].

Azərbaycanın kimya və neft-kimya kompleksinin ixrac imkanları yüksək qiymətləndirilir və bu sahənin inkişafını genişləndirməklə ölkəmizə əlavə valyuta daxilolmalarının artmasında uğurlar əldə etmək olar [9, s. 194]. Digər tərəfdən, Azərbaycanın kimya və neft-kimya sahələrinin modernləşdirilməsi və yüksək texnologiyalara əsaslanan sənaye komplekslərinin ixrac potensialının artırılması üçün yeni və məhsuldar mənbələrin formalaşdırılması perspektivləri böyükdür [10, s.63]. Lakin bu potensialların səmərəli şəkildə istifadəsi üçün böyük səylər tələb olunur. Kimya və neft-kimya sahəsinin istehsal və ixrac potensiallarının birgə istifadəsi yüksək effekt verə bilər. Elmi ədəbiyyatda müəssisənin istehsal-ixrac potensialının formalaşmasına və istifadəsinə təsir edən bir sıra amillər nəzərdən keçirilir. Bu amillər müxtəlif olduğundan onların təsnifatında müxtəlif yanaşmalardan istifadə olunur. Bütün amillər istehsal-ixrac potensialının vəziyyətinə və ondan istifadəyə müsbət və mənfi təsir göstərə bilər. Kimya və neft-kimya sahəsinin fəaliyyətinə təsir edən amillərin mühüm qrupu istehsal potensialının və ixracın inkişaf etdirilməsi imkanlarını müəyyənləşdirən texnoloji amillərdir. Həmin sahənin rəqabət üstünlükləri də istehsal olunan məhsulların yeniliyindən çox asılıdır. Buna görə kimya və neft-kimya sahəsində yeni növ xammal və materialların istifadəsi, təşkilati və texnoloji proseslərin inkişafı və

təkmilləşdirilməsi yolu ilə istehsal-ixrac potensialı sistematik şəkildə artırılır [11, s.124].

Kimya və neft-kimya sahəsinin əsas göstəricilərdən biri olan həmin sahə müəssisələri üzrə məhsul buraxılışının dəyər həcminin artım dinamikası şəkil 1-də əks olunmuşdur.




**Şəkil 1. Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə dəyər həcmində məhsul buraxılışı, mlyn. manat.**

**Mənbə: https://www.stat.gov.az/source/industry/ARDSK-əsasında hazırlanmışdır**




**Şəkil 2. Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə dəyər həcmində məhsul buraxılışının ümumi sənaye məhsulunda xüsusi çəkisi, faizlə**

**Mənbə: https://www.stat.gov.az/source/industry/ARDSK)-əsasında hazırlanmışdır**

Şəkil 1-dən görürük ki, Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə dəyər həcmində məhsul buraxılışı demək olar ki, davamlı artım nümayiş etdirmişdir. Artım əsasən neft emalı müəssisələri üzrə olmuşdur. Məsələn, 2023-cü ildə neft emalı müəssisələri üzrə məhsul buraxılışının həcmi 565,4 milyon AZN olub ki, bu da 2015-ci ilə görə 34,7% çoxdur. 2023-cü ildə kimya müəssisələri üzrə məhsul buraxılışının həcmi isə 41,6 milyon AZN olub ki, bu da 2015-ci ilə görə 6,1 dəfə çoxdur. Belə artımın əsas səbəbi təkcə istehsal həcminin natura formasında artım deyil, habel inflyasiya prosesləri ilə əlaqədar qiymət artımı ilə də bağlıdır.

Şəkil 2 vasitəsilə kimya və neft emalı müəssisələri üzrə dəyər həcmində məhsul buraxılışının ümumi sənaye məhsulunda xüsusi çəkisini təhlil edək.

Şəkil 2-də 2015-2023-cü illər ərzində Azərbaycanda kimya və neft emalı müəssisələri üzrə dəyər həcmində məhsul buraxılışının ümumi sənaye məhsulunda xüsusi çəkisinin 7,0 – 10,7% aralığında dəyişdiyini görürük. Bu göstərici ən az 2018-ci ildə olmaqla 7,0%, ən çox isə 2015-ci ildə olmaqla 10,7% təşkil etmişdir. 2023-cü ildə isə bu göstərici 9,1% təşkil edib.

Şəkil 3 vasitəsilə 2023-cü ildə “SOCAR” Azərbaycanın tərkibində fəaliyyət göstərən bəzi kimya və neft emalı müəssisələri üzrə məhsul satışının naturada mövcud həcmini təhlil edək.

Şəkil 3-dən görürük ki, 2023-cü ilə “SOCAR” Azərbaycanın tərkibində fəaliyyət göstərən bəzi kimya və neft emalı müəssisələri üzrə ən çox məhsul satışını reallaşdıran “Azərikimya” İB-dir. Həmin ildə “Azərikimya” İB tərəfindən 591,4 min ton məhsul satışa çıxarılmışdır ki, bunun 348,9 min tonu və ya 59,0%-i ixrac olunmuş, digər hissəsi isə daxili bazara yönəldilmişdir. Lakin ən çox məhsul ixrac edən müəssisə “SOCAR” metanol müəssisəsi olmuşdur. Həmin müəssisənin satışa çıxardığı məhsulun 502,0 min tonu və ya 97,0%-i ixrac olunmuşdur.

Aparılan təhlillər onu deməyə əsas verir ki, kimya və neft-kimya sənayesi Azərbaycan iqtisadiyyatında önəmli yer tutur, ümumi sənaye məhsulunda, ÜDM-də əhəmiyyətli pay yaradır və çoxlu sayda iş yerləri yaradır. Kimya və neftkimya sahəsinin səmərəliliyi bilavasitə xammal ehtiyatlarından, istehsal vasitələrindən, kadr potensialından, maliyyə, investisiya və digər növ resurslardan istifadənin səmərəliliyindən asılıdır ki, bunlar da bütövlükdə həmin sahənin istehsal-ixrac potensialının artırılmasına təsir göstərir.




**Şəkil 3. 2023-cü ilə "SOCAR" Azərbaycanın tərkibində fəaliyyət göstərən bəzi kimya və neft emalı müəssisələri üzrə daxili və xarici bazarlarda məhsul satışının natura həcmi, ton (Mənbə: file:///C:/Users/Admin/Downloads/illik-hesabat-2023%20(1).pdf)-əsasında hazırlanmışdır.**

**Nəticə**

Beləliklə, kimya və neft-kimya sahəsinin istehsal-ixrac potensialının səmərəliliyini qiymətləndirdikdən sonra onun artırılması və ya düzgün istiqamətləndirilməsi üçün tədbirlər müəyyənləşdirməlidir. İstehsal-ixrac potensialına daxil olan müddəalar:

- istehsal-ixrac potensialı konkret müəssisənin məhsul istehsal etmək və onu ixrac etmək qabiliyyətini xarakterizə edir;
- istehsal-ixrac potensialı müəssisənin bütün resurslarının öyrənilməsinin nəticələrinə əsasən qiymətləndirilməlidir;
- müəssisənin bütün resurslarının məcmusunda istehsal-ixrac potensialının müəyyənləşdirilməsi, rəqabət qabiliyyətini qiymətləndirməyə, rəqabət üstünlüklərini müəyyənləşdirməyə və dinamik inkişaf etməyə imkan verir;
- əhəmiyyətli göstəricilər əsasında istehsal-ixrac potensialından istifadənin səmərəliliyini qiymətləndirmək lazımdır;
- istehsal-ixrac potensialının qiymətləndirilməsi təkcə əldə edilmiş nəticəni əks etdirmir, habelə cari fəaliyyəti xarakterizə edir və müəssisənin fəaliyyətinin və inkişafının gələcək nəticələrini proqnozlaşdırmağa imkan verə bilər və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Кодинцева, А.В. Формирование экспортного потенциала предприятия / А.В. Кодинцева, Е.В. Кобзева // Экономика. Менеджмент. Инновации. – 2019. – № 6(24). – С. 28-36.
2. Əliyev, Ş.T. Azərbaycanda neftkimya emal müəssisələrinin rəqabətqabiliyyətinin artırılması yolları / Ş.T. Əliyev // Elmi Xəbərlər. Sosial və Humanitar Elmlər Bölməsi. – 2024. – Cild 20, №. 1, – s. 67-72.
3. Протасов, В.В. Повышение эффективности использования производственного потенциала предприятия / В.В. Протасов, А.О. Корсун // Вестник Луганского государственного университета имени Владимира Даля. – 2023. – № 11(77). – С. 183-187.
4. Флакс, Д.Б. Потенциал технологического развития нефтехимического комплекса / Д.Б. Флакс // Известия Самарского научного центра Российской академии наук. – 2023. – Т. 25, № 1(111). – С. 17-22.
5. Salmanov, M.C. Strateji yol xəritəsinə uyğun neft-kimya kompleksinin ixrac potensialının gücləndirilməsi yolları. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (mart-aprel), s.154-163.

6. Алиев, Ш.Т. Внешнеэкономическая политика Азербайджана. Сумгаит: Изд-во Сумгаитского государственного университета, 2015, – 185.

7. Красова, Е.В. Сущность и механизм управления экспортным потенциалом предприятия / Е.В. Красова, Е.Е. Иванова // Актуальные вопросы современной экономики. – 2018. – № 5. – С. 383-389.

8. Azərbaycan Respublikasının neft-qaz sənayesinin (o cümlədən kimya məhsullarının) inkişafına dair Strateji Yol Xəritəsi". Bakı, 6 dekabr 2016.

9. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.

10. Əliyev, Ş.T. Azərbaycanda strateji yol xəritələrinin gerçəkləşdirilməsində ixrac potensialının artırılması yolları. Audit № 1,2017, s.60-66.

11. Агаев, С.Г., Алиев, Ш.Т. Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией. Баку: Элм, 2004.-280 с.

**Мугаддас Фахри оглы АЗИЗЗАДЕ,**
Докторант Азербайджанского Государственного
Университета Нефти и Промышленности

## ОЦЕНКА ПРОИЗВОДСТВЕННОГО - ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА В ХИМИЧЕСКОЙ И НЕФТЕХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

### Резюме

*Целью исследования* является оценка производственного - экспортного потенциала химической и нефтехимической промышленности Азербайджана. Были исследованы и раскрыты проблемы развития химической и нефтехимической промышленности. Отмечен высокий экспортный потенциал химического и нефтехимического комплекса. Среди ненефтегазовых секторов экономики Азербайджана особо выделяется экспортный потенциал химического и нефтехимического комплекса. С учетом новых вызовов разработаны рекомендации и внесены предложения по оценке производственного - экспортного потенциала химической и нефтехимической промышленности Азербайджана.

*В качестве метода исследования* использовались методы анализа, синтеза, статистического анализа и обобщения. В то же время были упомянуты исследования, проводимые с целью увеличения производственного и экспортного потенциала химической и нефтехимической отраслей.

*Подводя итоги исследования,* можно отметить, что полученные в статье научные результаты имеют широкие возможности для использования при разработке мер и механизмов повышения производственного и экспортного потенциала химической и нефтехимической отраслей.

***Ключевые слова:*** *Азербайджан, химическая и нефтехимическая промышленность, производственно-экспортный потенциал, оценка, приоритеты увеличения производственно-экспортных возможностей, направления развития химической и нефтехимической промышленности.*

**AZIZZADE Mugaddas Faxri,**
Doctoral student of Azerbaijan State Oil and Industry University

## ASSESSMENT OF PRODUCTİON AND EXPORT POTENTİAL İN THE CHEMİCAL AND PETROCHEMİCAL İNDUSTRY İN AZERBAİJAN

**Summary**

*The purpose of the study is* to assess the production and export potential of the chemical and petrochemical industry in Azerbaijan. The development problems of the chemical and petrochemical industry have been investigated and explained. The high export potential of the chemical and petrochemical complex has been noted. The export potential of the chemical and petrochemical complex has been particularly distinguished among the non-oil and gas sectors in Azerbaijan. Taking into account new challenges, recommendations have been developed and proposals have been made on assessing the production and export potential of the chemical and petrochemical industry in Azerbaijan.

*The research method* used was analysis, synthesis, statistical analysis and generalization. At the same time, reference was made to studies conducted in the areas of increasing the production and export potential of the chemical and petrochemical sectors.

*In terms of the results of the study*, it can be noted that the scientific results obtained in the article have wide possibilities for using them in the development of measures and mechanisms to increase the production and export potential of the chemical and petrochemical sectors.

***Keywords**: Azerbaijan, chemical and petrochemical industry, production-export potential, assessment, priorities for increasing production-export opportunities, development directions of the chemical and petrochemical industry.*